

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 23 (23.910)**

***4 fevral 2022-ci il, cümə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


***Hər bir ölkənin dayanıqlı inkişafında enerji təhlükəsizliyinin təmin olunması ilk sırada gəlir. Çünki enerji təhlükəsizliyinə nail olmadan iqtisadi inkişafdan, iqtisadi inkişaf təmin olunmadan ümumi inkişafdan bəhs etmək mümkün deyil. Son illərdə inkişaf etmiş ölkələrin enerji istehsalında bərpa olunan mənbələrdən istifadəyə daha çox yer verilməsi isə enerji seqmentində daha dayanıqlı və təmiz istehsalın həcmini artırmaqdadır. Təsadüfi deyil ki, bu gün dünyada karbohidrogenlərin hasilatı ilə məşğul olan enerji şirkətləri ilə bərabər "Google", "Facebook", "Amazon" kimi texnologiya nəhəngləri də bu enerji növünə investisiyalar edir.***

## Naxçıvanda elektrik enerjisi istehsalının bərpa olunan enerji mənbələri hesabına şaxələndirilməsi qlobal iqlim dəyişikliyinə ən böyük töhfədir







Naxçıvan Muxtar Respublikasında da enerji təhlükəsizliyi məsələləri dövlət tərəfindən həyata keçirilən prioritetlər sırasındadır. Ötən əsrin sonlarında muxtar respublikanın blokadaya salınması bu vacib sektorun inkişafına böyük əngəllər yaratsa da, enerji təhlükəsizliyi ilə bağlı görülən işlər bu sahənin hərtərəfli inkişafına zəmin yaradıb, nəticədə, muxtar respublikamız enerji idxalçısından ixracatçısına qədər böyük bir yol qət edib. Diyarımızın energetikasında mövcud təbii potensialdan lazımınca istifadə son bir neçə ildə bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalına imkanlar açıb, qısa müddətdə bu sahədə mühüm nəticələr əldə olunub. Son illər yeni su və günəş elektrik stansiyalarının tikilməsi enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verib.

Hamımıza məlumdur ki, muxtar respublikanın təbii-cografi şəraiti burada bir sıra bərpa olunan enerji mənbələrindən istifadə üçün əlverişli şərait yaradır. Məsələn, günəşli günlərin sayının çox olması son illərdə muxtar respublikada yeni günəş elektrik stansiyalarının yaradılmasına imkan verib. İlk dəfə olaraq 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması, həmçinin 2019-cu ildə Kəngərli rayonunun Qabıllı kəndi ərazisində 2 meqavat, 2020-ci ildə isə 3 meqavat gücündə Günəş elektrik stansiyalarının istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına səbəb olub. Bu sahədə görülən işlərin davamı kimi ötən il Şərur rayonunda 5 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası, həmçinin Culfa rayonunda muxtar respublikada ilk dəfə olaraq Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına son səfəri zamanı muxtar respublikanın enerji təhlükəsizliyi ilə bağlı görülən işləri yüksək qiymətləndirərək deyib: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".***

Bir məsələni də vurğulamaq lazımdır ki, muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işlərin hamısı müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Şərur Günəş Elektrik Stansiyasının açılış mərasimində bu haqda deyib: ***"...Əgər 70 il ərzində Araz çayı üzərində cəmi 1 müştərək elektrik stansiyası tikilmişdirsə, müstəqillik illərində Naxçıvanda 9 yeni elektrik stansiyası qurulmuşdur ki, bunun da 5-i su, 3-ü isə günəş elektrik stansiyasıdır. Onların sırasına bu gün 5 meqavat gücündə yeni Şərur Günəş Elektrik Stansiyası da daxil olur. Bu da muxtar respublikada Günəş Elektrik stansiyalarının gücünü 32 meqavata, illik istehsalını isə 50 milyon kilovat-saata çatdıracaqdır".***

Muxtar respublikanın energetika sistemində görülən işlər bu gün də davam etdirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin məlumatına görə, hazırda Ordubad rayonu ərazisində Araz çayı üzərində derivasiya tipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasında və gücü 15,6 meqavat olacaq Tivi Su Elektrik Stansiyasında tikinti-quraşdırma işləri davam etdirilir, eyni zamanda Ordubad rayonunda gələcəkdə külək turbinlərinin istismarının texniki-iqtisadi əsaslandırılması üçün ölçü qurğuları quraşdırılıb və lazımi ölçmə işləri aparılır. Culfa rayonunda da yeni külək turbinlərinin quraşdırılması üçün ərazinin seçilməsi və layihələndirmə işləri davam etdirilir. Bundan əlavə, ötən il Şərur rayonunda istifadəyə verilmiş və ilkin layihə gücü 5 meqavat olan yeni Günəş Elektrik Stansiyasının istismara verildiyi ərazidə gücü 3 meqavat olacaq yeni Günəş Elektrik Stansiyasının tikinti-quraşdırma işləri davam etdirilir.

Xidmətin 2021-ci ilin yekunlarına dair digər məlumatına görə, ötən il elektrik stansiyalarında 444 804 006 kilovat-saat elektrik enerjisi istehsal edilib sistemə ötürülüb ki, bu enerjinin 129 570 936 kilovat-saatı və ya 29,13 faizi su elektrik stansiyalarında, 264 438 160 kilovat saatı və ya 59,45 faizi istilik elektrik stansiyalarında, 50 794 910 kilovat-saatı və ya 11,42 faizi Günəş elektrik stansiyalarında istehsal edilib. 2021-ci il ərzində alternativ və bərpa olunan enerji mənbələrində 180 365 846 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu, stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 40,55 faizini təşkil edir.

Bu gün dünyada elektrik enerjisinə tələbatın ətraf mühitə zərər vurmadan ödənilməsi aktual məsələlərdəndir. Çünki bərpa olunan enerji mənbələri atmosferə atılan karbon emissiyalarının azaldılmasında mühüm rol oynayır. Muxtar respublikada elektrik enerjisi istehsalının bərpa olunan enerji mənbələri hesabına şaxələndirilməsi qlobal iqlim dəyişikliyinə də ən böyük töhfədir.

**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Cari ilin ilk ayında imtahanların keçirilməsi diqqətdə saxlanılıb

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi 2022-ci ilin ilk ayında da qanunvericiliyin tətbiqinə nəzarət, işə qəbul, müsahibə, attestasiya və sertifikasiya imtahanlarının keçirilməsini aidiyyəti üzrə davam etdirib.*

Yanvarın 17-də təhsilverənlərin növbəti sertifikatlaşdırma imtahanları başlayıb. Muxtar respublikada pedaqoji heyətin bilik və bacarıqlarının yoxlanılması və fəaliyyətinin gücləndirilməsi məqsədilə ikinci dəfə keçirilən sertifikatlaşdırma imtahanlarında ötən il keçirilən imtahanlarda müvafiq keçid balını toplaya bilməyənlər, üzrlü səbəblərdən iştirak etməyənlər və pedaqoji fəaliyyətinin 5 ili tamam olan müəllimlər iştirak edir. Riyaziyyat müəllimləri üçün sertifikatlaşdırmanın tam başa çatdığı imtahanlar aprelin 7-nə qədər davam edəcək.



Yanvarın 25-dən başlayaraq dövlət qulluğuna qəbulun müsahibə mərhələsi keçirilir. Müsahibə qrupunun tərkibinə müstəqil ekspertlər, mərkəzin və dövlət orqanlarının nümayəndələri daxildir. Müsahibə zamanı namizədlərə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, peşə hazırlığına və dünyagörüşünə uyğun suallar verilir. Müsahibə mərhələsində iştirak etmək üçün 253 namizəd qeydiyyatdan keçib. Həmçinin əvvəlki müsabiqələrdə qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 8 namizədin müraciəti nəzərə alınaraq onların müsahibə mərhələsində iştirakları təmin olunub. Ən sıx müsabiqə vəziyyəti "ASAN xidmət" Mərkəzinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun aparıcı məsləhətçisi vəzifəsi üzrə yaranıb – 64 namizəd. İlk dəfə keçirilən dövlət teleradio və mətbuat orqanlarında işə qəbul üçün müxtəlif vəzifələr uğrunda 7 namizəd mübarizə aparacaq. Dövlət orqanları üzrə müsahibələr fevralın 9-na qədər davam edəcək.

Yanvarın 27-də dövlət musiqi təhsili müəssisələri üzrə müəllimlərin növbəti attestasiya imtahanları keçirilib. Budəfəki attestasiyada 67 namizəd iştirak edib, onlardan 39-u müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ əldə edib.

Yanvarın 31-də musiqi təhsili müəssisələrinə müəllimlərin işə qəbulu üçün növbəti test imtahanları keçirilib. Müsabiqəyə çıxarılmış 127 vakant vəzifənin tutulması üçün 102 namizəd qeydiyyatdan keçib. Ən çox müraciətin Şərur, Babək və Kəngərli rayonları üzrə qeydə alındığı müsabiqədə konsertmeyster-fortepiano, nağara və tar ixtisasları üzrə vakant vəzifələr üstünlük təşkil edib. Ayrı-ayrı vəzifələr üzrə ən çox müraciət isə konsertmeyster-fortepiano və nağara ixtisaslarına olub. Müsabiqənin nəticələrinə əsasən test imtahanında iştirak edən 102 namizəddən 31-i müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Yanvar ayında Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunmuş müəllimlərin sertifikasiya imtahanları üçün hazırlıq kurslarında 138 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Torpaqların su təminatı yaxşılaşdırılır

***Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq cəmiyyətin tabe təşkilatları tərəfindən ilin əvvəlindən tərtib olunmuş qrafikə müvafiq yanvar ayı ərzində kanallarda, nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işlərinə başlanılmış, su anbarlarına suyun yığılması həyata keçirilmişdir. Ötən ay ərzində sututarlara 76,47 milyon kubmetr su yığılmışdır.***

Hesabat dövründə 0,50 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmiş, 18,75 kilometr beton və torpaq kanal, 8,75 kilometr ara arxlar, 1,2 kilometr kollektor lildən təmizlənmiş, 0,16 kilometr içməli su, 0,08 kilometr kanalizasiya, 0,8 kilometr təzyiqli boru xətti çəkilmiş, 0,95 kilometr mövcud içməli su, 0,1 kilometr kanalizasiya, 0,27 kilometr suvarma boru xətlərində, 1,14 kilometr təzyiqli boru xətlərində və 0,12 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.



Torpaqların su təminatının yaxşılaşdırılması və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinə başlanılmışdır. Culfa rayonunda sağ sahil kanalında təmir işləri davam etdirilmiş, kanal üzərində yerləşən 2 yol keçidi və 3 suburaxıcı qapı təmir edilmişdir.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılmışdır. Ötən ay görülmüş işlər nəticəsində Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 10 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Kəngərli rayonunun Böyükdüz kəndinin 2100 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmək məqsədilə Araz çayından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi, platformanın quraşdırılması işləri davam etdirilmişdir. Nasos binasının tikintisi üçün metal torlar toxunmuş, beton və hörgü işləri aparılmışdır. Ərazidə diametri 900 millimetr olan borularla 0,8 kilometr təzyiqli boru xətti, 1 əks klapan, 1 suboşaldıcı siyirtmə quraşdırılmışdır.

Muxtar respublikada su təminatının yaxşılaşdırılmasında subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunmuşdur. Ötən ay 41 subartezian quyusunda təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə təmir-bərpa işləri davam etdirilmişdir.

2021-2022-ci illərin payız-qış mövsümü ilə əlaqədar Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə cəmiyyətdə hazırlanmış "Tədbirlər planı"nın icrası üzrə işlər davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

# Tanınmış bəstəkar Naxçıvan Dövlət Universitetinin fəxri doktoru seçilib



Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar Tofiq Bakıxanov musiqi mədəniyyəti tarixində və inkişafındakı xidmətlərinə və Naxçıvan Dövlət Universiteti ilə səmərəli pedaqoji əməkdaşlığına görə ali təhsil ocağının fəxri doktoru seçilib. Universitet Elmi Şurasının iclasında fəxri doktor diplomu tanınmış bəstəkara təqdim olunub.

İclasda universitetin rektoru, Elmi Şuranın sədri, dosent Elbrus İsayev çıxış edərək Azərbaycanın mötəbər Bakıxanovlar nəslinin nümayəndəsi olan bəstəkarın XX əsrin ortalarında formalaşmağa başlayan çoxşaxəli və məhsuldar yaradıcılığından ətraflı bəhs edib. Bildirilib ki, Tofiq müəllimin atası, görkəmli tarzən, muğam bilicisi Əhməd ağa Bakıxanovdan öyrəndiyi muğamlar onun yaradıcılığı üçün əsaslı bünövrə olub. Bununla yanaşı, dahi Qara Qarayevin sinfində musiqinin incəliklərini öyrənməsi onun sənətkarlıq baxımından professional zirvəyə çatmasına səbəb olub.

Rektor bildirib ki, Tofiq Bakıxanovun Naxçıvana olan sevgisi muxtar respublika rəhbəri tərəfindən yüksək qiymətləndirilib və daim diqqət mərkəzində saxlanılıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun milli musiqimizin, mədəniyyətimizin inkişafına, təbliğinə, sənətə və sənətkara verdiyi önəm sayəsində bəstəkar "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb və Naxçıvan musiqi ictimaiyyəti Tofiq Bakıxanov yaradıcılığı ilə daha dərindən tanış olmaq imkanı əldə edib.

Diqqətə çatdırılıb ki, Ali Məclis Sədrinin sərəncamları ilə Tofiq Bakıxanovun 75, 80 və 85 illik yubileyləri, eyni zamanda bəstəkarın babası, görkəmli ziyalı, şair və yazıçı Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi Naxçıvanda yüksək səviyyədə qeyd olunub.

Elmi Şura üzvlərindən Tədris və tərbiyə işləri üzrə prorektor Rafiq Rəhimov, Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva, universitetin Musiqinin nəzəriyyəsi və tarixi kafedrasının müdiri, sənətşünaslıq üzrə elmlər doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi İnara Məhərrəmova, universitetin İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov çıxış edərək tanınmış bəstəkarın Naxçıvan Dövlət Universitetinin fəxri doktoru seçilməsi təklifini yüksək dəyərləndiriblər. Çıxış edənlər musiqi mədəniyyəti tarixində və inkişafında özünəməxsus xidmətləri olan görkəmli bəstəkarın muxtar respublikanın tərənnümünə həsr edilən əsərlərindən, yaradıcılığının sənətkarlıq xüsusiyyətlərindən bəhs ediblər. Qeyd olunub ki, bəstəkar dəfələrlə universitetin konservatoriyasında, Naxçıvan Musiqi Kollecində, musiqi məktəblərində həm tələbələrə ustad dərsləri keçib, öz dəyərli məsləhətlərini verərək tələbələrin ifasında təşkil olunan konsertlərin dinləyicisi olub.

Rektor tərəfindən görkəmli bəstəkar Tofiq Bakıxanova universitetin fəxri doktoru diplomu və mantiyası təqdim olunduqdan sonra bəstəkar muxtar respublikada milli mədəniyyətin inkişafına, sənətkara göstərilən dövlət qayğısından, yaradıcılığında özünəməxsus yer tutan qədim diyarımız haqqında danışıb.

***Naxçıvan Dövlət Universitetinin mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Bəstəkarlar təşkilatında görüş



Sənətkarlığın kamillik zirvəsində olan Azərbaycanın görkəmli bəstəkarı, Azərbaycan SSR Xalq artisti, professor Tofiq Bakıxanovun 90 illik yubileyi münasibətilə Naxçıvan Bəstəkarlar Təşkilatında tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan təşkilatın sədri Yaşar Xəlilov Naxçıvan Bəstəkarlar Təşkilatının da fəxri üzvü olan bəstəkarı yubiley münasibətilə təbrik edib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova bildirib ki, milli musiqimizin və bəstəkarlıq sənətinin inkişafında müstəsna rolu olan Tofiq Bakıxanov əsərləri ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafına xidmət edən bəstəkar, mahir ifaçılıq imkanlarına malik skripkaçı, milli musiqiçi kadrların yetişməsində əməyi olan gözəl pedaqoq, musiqi sənətinin müxtəlif problemlərinə həsr olunmuş elmi-publisistik məqalələrin müəllifi, musiqimizi xarici ölkələrdə geniş təbliğ edən fəal ictimai xadim kimi tanınmışdır.

Tofiq Bakıxanov sənət taleyində mühüm rol oynamış dahi bəstəkar və musiqişünas, Azərbaycan milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin xeyir-duası ilə musiqi sənətinə gəlmiş və məhz onun məsləhəti ilə skripka alətini seçmişdir. O, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin ənənələrinin davamçısına və təbliğatçısına çevrilməklə Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi "Üzeyir Hacıbəyli" fəxri medalının laureatı olur.

Tədbirdə gənc bəstəkarlar qarşısında çıxış edərək onlara öz tövsiyələrini verən Tofiq Bakıxanov qeyd etmişdir ki, Qara Qarayevdən musiqinin incəliklərini öyrənmiş, bəstəkarlığın necə çətin və şərəfli bir sənət olduğunu dərindən duymuşdur. Bütün bunlar onun Azərbaycan bəstəkarlıq məktəbinin qabaqcıl nümayəndəsi kimi ad-san qazanmasına gətirib çıxarmışdır.

Sonda bəstəkarın bəstələrinin sədaları altında keçirilən 90 illik yubiley tədbirində film izlənilmişdir.

**Xəbərlər şöbəsi**

İstehsal müəssisələri

# "Tudor Logistika və Sənaye Mərkəzi" muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfəsini verəcəkdir

***Bu gün muxtar respublikamızda iqtisadiyyatın hərtərəfli inkişafını təmin etmək, yüksək texnologiyalar əsasında sənayenin davamlı fəaliyyətinə və şaxələndirilməsinə nail olmaq iqtisadi siyasətin əsas məqsədlərindən biri sayılır. Son illər regionumuzda müasir dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini və innovativ istehsalın inkişaf etdirilməsini daha da sürətləndirib. Belə ki, muxtar respublikada iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına da xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, bu sahədə kadr hazırlığının təkmilləşdirilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi üçün sistemli tədbirlər həyata keçirilir.***





Sənayenin daha sürətlə və innovativ inkişafını təmin etmək üçün biznes sektoruna müəyyən güzəştli kreditlərin və yardımların edilməsi, sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili bu sahənin inkişafını daha da sürətləndirir, sənaye müəssisələrində rəqabətədavamlı məhsul istehsalına təkan verir. Sənayeləşmə siyasətinə uyğun olaraq daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarını genişləndirən yüzlərlə müasir sənaye müəssisələri, sənaye məhəllələri, o cümlədən yeni istehsal sahələri yaradılır. Çoxsaylı belə sənaye müəssisələrindən biri də ötən ilin dekabr ayında fəaliyyətə başlayan "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının "Tudor Logistika və Sənaye Mərkəzi"dir. Bu günlərdə adıçəkilən sənaye obyekti ilə yaxından tanış olmaq üçün biz də həmin ünvanın yolunu tutduq.

Məlumat üçün qeyd edək ki, ötən il dekabr ayının 17-də "Tudor Logistika və Sənaye Mərkəzi"nin açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək demişdir: ***"Ölkəmizdə iqtisadi inkişafın və sabitliyin təmin olunması, ümummilli liderimiz Heydər Əliyev yolunun uğurlu davam etdirilməsi işğal altında olan torpaqlarımızın azad olunmasına imkan verdi. Bu gün həm işğaldan azad olunmuş ərazilərdə, həm də ölkəmizin digər bölgələrində abadlıq-quruculuq işləri həyata keçirilir. Bu tədbirlərin tərkib hissəsi olaraq sahibkarlıq fəaliyyəti də dövlət siyasətinin əsas istiqaməti kimi dəstəklənir, sahibkarlar dövlətin, dövlət isə sahibkarların mənafeyini qoruyur. Yeni iş yerlərinin açılması isə əhalinin yaşayış səviyyəsinin yaxşılaşmasına töhfə verir".***

Müəssisədə olarkən icraçı direktor Etibar Səfərov bizi mərkəzlə daha yaxından tanış edir. Öyrənirik ki, "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı tərəfindən yaradılan "Tudor Logistika və Sənaye Mərkəzi" əhalinin zəruri ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayan regional sənaye müəssisələrindən biridir. İllik istehsal gücü 4880 ton olan müəssisədə qənd, şəkər tozu, dənli bitkilərin və çayın qablaşdırılması olmaqla, ümumilikdə, 57 çeşiddə məhsul istehsal olunacaqdır. Bununla yanaşı, müəssisədə qənd istehsalı və şəkər tozunun, dənli bitkilərin və çayın qablaşdırılması bölmələri də yaradılmışdır. Burada istehsal sahəsi ilə yanaşı, hazır məhsul və xammal anbarı, yeməkxana, 5 iş otağı, iclas zalı, laboratoriya və digər xidmət otaqları da mövcuddur. İcraçı direktorun sözlərinə görə, mərkəzdə yaradılan anbarda strateji ərzaq məhsullarının saxlanılması təmin edilir. İstehsal olunan məhsulların isə muxtar respublikanın tələbatını ödəməklə yanaşı, ölkəmizin digər regionlarına satışı da nəzərdə tutulur.





Mövzu ilə bağlı söhbətimizə mərkəzin icraçı direktor köməkçisi Bəxtiyar Hacıyevlə davam edirik. Müsahibimiz ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda iqtisadiyyatın və sənayenin uğurlu inkişafından danışaraq deyir ki, bu gün regionumuzun bütün sahələrini əhatə edən iqtisadiyyatın dinamik inkişaf mərhələsi öz yolunda əmin addımlarla irəliləməkdədir. Hər birimizə məlumdur ki, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə davamlı inkişafa, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Bu sahədə öz uğurlu inkişaf yoluna çıxan "Tudor Logistika və Sənaye Mərkəzi" də inanırıq ki, öz fəaliyyət istiqamətləri ilə muxtar diyarımızda sənayenin inkişafına öz layiqli töhfəsini verəcək.

Müsahibimiz müəssisə haqqında məlumat verərək bildirir ki, "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı tərəfindən yaradılan, ümumilikdə, 11800 kvadratmetrlik sahəni əhatə edən "Tudor Logistika və Sənaye Mərkəzi"ndə 3 istehsal sahəsi fəaliyyət göstərir. Belə ki, burada 1229 kvadratmetrlik bir ərazini qənd istehsalı və şəkər tozu qablaşdırılması, 880 kvadratmetrlik ərazini dənli və paxlalı bitkilərin qablaşdırılması, 1147 kvadratlıq ərazini isə çay qablaşdırma sahəsi əhatə edir. Bununla yanaşı, mərkəzin anbar hissəsi də iki hissədən: xammal anbarı və hazır anbar hissələrindən ibarətdir. İxrac olunan yüksəkkeyfiyyətli məhsullarımızın əsas xammalı yerli məhsullara əsaslansa da, xarici şirkətlərlə etdiyimiz əməkdaşlıq sayəsində mərkəzə kənardan da keyfiyyətli xammal cəlb olunur. Məhz istehsal etdiyimiz iki növdə: ətirli və sadə çayın xammalı da belə əməkdaşlıq əlaqələrinin nəticəsində Şri-Lankadan gətirilir. Burada həmin çayın keyfiyyətinə laboratoriyada uzun illər bu sahədə fəaliyyət göstərmiş çay mütəxəssisləri tərəfindən nəzarət edilir, onların tərkibi yoxlanılır və məqsədəuyğun sayıldıqda istehsal üçün hazır vəziyyətə gətirilir. Mərkəzimizdə tətbiq olunan avadanlıqlar da Avropa standartlarına cavab verən və Türkiyə Respublikasının istehsalı olan avadanlıqlardır. Ümumilikdə isə mərkəzin istehsal gücü aylıq 30-35 tona bərabərdir.

Bəxtiyar Hacıyevin sözlərinə görə, istehsal olunan məhsulların qablaşdırma növləri də müxtəlif çəkilərdə və ölçülərdə hazırlanır:

– Müəssisəmizdə istehsal olunan hər bir məhsul müxtəlif çəkilərdə və ölçülərdə hazırlanmaqdadır. Belə ki, "Tudor" brendində istehsal edilən çaylarımız 100, 250, 500 qramlıq qablaşdırmalarda alıcılarımıza təklif olunur. Bununla yanaşı, müəssisəmizdə qənd və şəkər tozu istehsalı sahəsində də üç növdə – parça qənd, kəllə qənd, sarma qənd istehsal olunur. Qəndlər də müxtəlif çəkidə və ölçüdə olur. Parça qənd 500 qram, 1 kiloqram, 1,5 kiloqram çəkilərdə, kəllə qənd 500 qram, 1 kiloqram çəkilərdə, şəkər tozu 800 qram, 1 kiloqram çəkilərdə, sarma qənd isə aylıq 7-8 ton istehsal olunur. Qeyd etmək yerinə düşər ki, müəssisəmizdə həm də sifarişlər əsasında stik şəkər tozları da istehsal edilməkdədir. Dənli və paxlalı bitkilərin qablaşdırılması və istehsal prosesinə gəldikdə isə bu sahədə 25 çeşiddə, 700 qram və 1 kiloqramlıq çəkilərdə məhsul hazırlanır.

Müsahibimiz deyir ki, fəaliyyətə başladığı bu qısa müddət ərzində müəssisənin istehsal gücü onu göstərir ki, muxtar respublikamızın tələbatını tam şəkildə ödəməyə qadirdir. İnanırıq ki, məhsullarımız yaxın gələcəkdə də region hüdudlarından kənarda da özünə xeyli sayda alıcı kütləsi toplayacaq.

*Bu gün artıq mövcud reallıqlara, iqtisadiyyat sahəsində əldə edilən uğurlara bir daha nəzər saldıqda deyə bilərik ki, muxtar respublikamızda sahibkarlığın inkişafı üçün əlverişli mühit formalaşıb. Həyata keçirilən tədbirlər nəticəsində hər il yeni istehsal sahələri yaradılır, daxili bazarda yerli istehsalın payı artır. Bu sahədə "Tudor Logistika və Sənaye Mərkəzi" də öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır.*

**Məcid RƏŞADƏTOĞLU**

İnkişaf edən bölgələrimiz

# Qədimliyi ilə öyündüyü kimi, müasirliyi ilə də qürurlanan yurd yerimiz



*Alınmaz qaladı, əyilməz vüqar*
*İgidlər, ərənlər oylağıdır o.*
*Geyib şux libası olub gülüzar,*
*Düşmənə ən ağır göz dağıdır o.*

***Bəli, mübarizlik rəmzi, qürur, iftixar mənbəyi, inam, etibar yeridir, müasir tariximin vətənpərvərlik nümunəsi, xalqımın cəsarət, ləyaqət məktəbidir Sədərək. 1990-cı illərin ağrılı günlərinin ən ümdə şahidi, ümummilli liderimiz Heydər Əliyevin dühası, fenomenliyi, qəhrəman oğulların şücaəti, al qanı ilə, birlik, bərabərlik sayəsində yenilməzlik salnaməsi yazan Azərbaycanın qeyrət qalası, şərəf məbədidir o. 44 günlük Vətən müharibəsində Məmmədhəsən Sadiqli, Tağı Abdullazadə, Ərtoğrul Nadirli, Rüfət Gözəlov kimi qəhrəmanları ilə Böyük Qələbəmizə töhfələr verərək bir daha göstərdi tükənməyən əzəmətini, bitməyən qətiyyətini. Üzük qaşı kimi dörd bir yanını dövrələyən dağların vüqarından, dövlətimizin qüdrətindən, ordumuzun müzəffərliyindən, gecə-gündüz keşiyini çəkən oğulların hünərindən güc alan zəhmətkeş insanlarının yaratdığı bərəkət limanına, quruculuq, abadlıq, inkişaf abidəsinə çevrilir günü-gündən bu bölgəmiz. Vətənə sədaqət, yurda məhəbbət, el-oba təəssübkeşliyi nümunəsi kimi bugünkü və gələcək nəsillər üçün örnək olan məğrur duruşlu Sədərək əmin addımlarla irəliləyir yüksəliş, tərəqqi yolunda...***

*Tarixin 2021-ci səhifəsinin quruculuq, abadlıq töhfələri...*

Deyirlər, tarixə düşmək özü də uğur hesab edilir, amma ən böyük uğur tarixin qatarında bu günə gəlib çatmaq və gələcəyə getməkdir. Bu mənada, 5 minillik şəhərsalma mədəniyyəti, 98 muxtariyyət yaşı olan Naxçıvanın müstəqillik illərindəki inkişaf parametrlərini nəzərdən keçirdikcə uğur qatarının gələcəyə doğru necə sürətlə irəlilədiyi canlanır gözlərimiz önündə. İlbəil, sözün əsl mənasında, başdan-başa dəyişilir, gözəlləşir, müasirləşir, abadlaşır, unikal məkana çevrilir muxtar respublikamızın bütün şəhər və kəndləri. Ən ucqar bölgələrimizdən sayılan, düşmənin bir addımlığında yerləşən, yağılara gözdağı olan Sədərəyə göstərilən diqqət, orada yaşayan insanların həyat şəraiti üçün yaradılan imkanlar isə tamamilə nümunə səviyyəsindədir. “Abad el yolundan və suyundan bəlli olar” klassik deyimi Naxçıvan şəhərindən 80 kilometrdən artıq aralıda qərarlaşan Sədərəyin timsalında rayona üz tutan zaman həm yolboyu, həm də yetişdiyimiz ünvanda gördüklərimiz, şahidi olduqlarımız, sakinlərlə söhbətimiz zamanı əyani təsdiqini tapır.

Tariximizin 2021-ci səhifəsi muxtar respublikamızın bütün bölgələri ilə yanaşı, Sədərək üçün də yeniləşməyə, yüksəlişə xidmət edən əlamətdar hadisələrlə yadda qaldı. Ən mühüm fakt isə, heç şübhəsiz, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 23 fevral tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Dəmirçi kənd inzibati ərazi dairəsinin Şərur rayonunun tabeliyindən çıxarılaraq Sədərək rayonunun tabeliyinə verilməsi oldu. Bununla da Şərur rayonunun inzibati ərazisindən dövlət mülkiyyətində olan 4444 hektar torpaq sahəsi həmin Qanuna əlavə edilmiş xəritələrə uyğun olaraq Sədərək rayonunun inzibati ərazisinə birləşdirildi. Bu dəyişiklik Sədərək rayonunun iqtisadi potensialının artması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, vətəndaşlara xidmətin daha da yaxşılaşdırılması məqsədi daşıyır. Qeyd edək ki, son illərdə Dəmirçidə əkinçilik və heyvandarlıq ən gəlirli təsərrüfat sahələrinə çevrilib, bu kənddə istehsal edilən növbənöv məhsullar təşkil olunan yarmarkalarda, festivallarda böyük alıcı marağına səbəb olur. Buna görə də yaxın gələcəkdə bu amilin rayonun ümumi inkişafına, daxili tələbatı ödəmək, xaricə ixrac baxımından iqtisadi potensialına öz təsirini göstərəcəyini əminliklə demək olar.



***“Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun”,*** – deyən ümummilli liderimizin amallarına sədaqətin növbəti ifadəsi ötən il martın 11-də Sədərək rayonunda Bayraq Meydanının istifadəyə verilməsi, meydanda İkinci Qarabağ müharibəsində qazanılan qələbə və şəhidlərin xatirəsinə üçrəngli bayrağımızın qaldırılması ilə bir daha özünü göstərdi. Həmin mərasimdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi ***“Sədərək rayon kimi formalaşır, əhalinin yaşayışı yaxşılaşır, imkanlar artır. Dəmirçi kəndinin rayona birləşdirilməsi kadr və investisiya potensialını yaxşılaşdıracaq, rayonun gəlirlərini artıracaqdır. Bütün bunlar Sədərək rayonunun inkişafına xidmət edir. Burada qəsəbənin qurulması, su-kanalizasiya sistemlərinin çəkilməsi, əhalinin içməli su ilə təminatı, infrastrukturun yenilənməsi, əkinəyararlı olmayan torpaqların əkin dövriyyəsinə qatılaraq istifadəyə verilməsi muxtar respublika üçün əhəmiyyətli olan bu rayonun inkişafına səbəb olub”*** sözləri rayonun inkişaf siyasətinin necə dəqiqliklə işləndiyini, qurulan infrastrukturun çoxaxəli olduğunu, bu ucqar bölgəmizə dövlətimizin hərtərəfli, diqqətlə yanaşmasının barizliyini bir daha təsdiqlədi.



Ötən il rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdən biri də Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının istifadəyə verilməsi oldu. Müasir üslublu binada ən yeni texnoloji avadanlıqların qurulması sədərəklilərin televiziya verilişlərinə keyfiyyətli şəkildə baxmalarının təmininə xidmət etməklə həm də yeniləşmək, beynəlxalq standartlarla ayaqlaşmaq yönündə atılan çox uğurlu addımdır. Ümumilikdə, 2021-ci ilin nəzərəçarpan iqtisadi göstəriciləri belə deməyə əsas verir ki, Sədərəkdə aparılan quruculuq, abadlıq tədbirləri bir sıra sahələri əhatə edib, yeni plan üzrə çoxaxəli `işlər görülüb. Statistik göstəricilərə əsasən ötən il rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 25 milyon 421 min 900 manat həcmində investisiya yönəldilib ki, bunun da 23 milyon 299 min 200 manatı və ya 91,6 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Bu tədbirlər çərçivəsində reallaşdırılmaq üzrə olan iri layihələrdən biri də Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsinin tikintisidir ki, bu da rayonun gələcəkdə iqtisadi inkişaf potensialının daha da artmasına böyük perspektivlər vəd edir.

Muxtar respublikamızın bu ucqar bölgəsinə son illərdə bir neçə dəfə üz tutduğumuzdan diqqətimizdən yayınmayan faktlardan biri də məskunlaşmanın artması, rayonun gözəlliyinə əlavə çalarlar qatan yeni yaraşıqlı evlərin salınmasıdır. Bu amil 2021-ci ildə də özünü ən bariz şəkildə göstərib, sakinlərin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə təsirsiz ötüşməyib, şəxsi vəsait hesabına, ümumilikdə, 6 min 658 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib. Ümumilikdə, Sədərəyin timsalında reallaşdırılan quruculuq, abadlıq işləri, eləcə də rayonun böyüməsi, böyük perspektivlərə malik layihələrin icrası baxımından 2021-ci ili yaddaqalan, əhəmiyyət kəsb edən bir il kimi xarakterizə etmək olar...

*Aqrar sahədə canlanma iqtisadi potensiala güclü təsir göstərib.*

Muxtar respublikamızın əhalisinin, əsasən, kəndlərdə yaşamasını şərtləndirən əsas amillər sırasında şəhər həyatına xas olan sosial-mədəni infrastruktura çıxış imkanları ilə yanaşı, aqrar sektorda kompleks tədbirlər həyata keçirilib, əkilən, becərilən ərazilərin miqyası xeyli genişləndirilib ki, bu da daxili bazarda məhsul bolluğunun yaradılması ilə nəticələnib.




Muxtar respublikamızın bütün bölgələrinə xas əkinçilik mədəniyyəti Sədərəyin timsalında da özünü bariz şəkildə göstərir, hər il olduğu kimi, 2021-ci ildə də taxılçılığın aqrar sahədə payı nəzərəçarpan dərəcədə böyüyüb. Belə ki, 2021-ci ilin məhsulu üçün 2 min 283 hektar sahədə taxıl əkini aparılıb ki, bunun 835 hektarını buğda, 1448 hektarını isə arpa təşkil edib. Suvarma suyu ilə təminat, məhsuldar toxum, həmçinin gübrə sortlarından istifadə, eyni zamanda texnikaların vaxtlı-vaxtında əkin-biçin işlərinə cəlbi keyfiyyət və kəmiyyət baxımından müsbət nəticə verib, sahələrdən 8407 ton məhsul tədarük edilib. Bəhs olunan dövrdə 31 hektar dənli-paxlalılar əkini sahəsindən 75 ton, 54 hektar dən üçün qarğıdalı əkilmiş sahədən 412 ton məhsul yığılıb. Dənli-paxlalılarda orta hesabla hər hektardan məhsuldarlıq 24,2, qarğıdalıda isə 76,3 sentner olub ki, bu göstəricilər bir il öncəkini xeyli üstələyib. 2021-ci ildə rayonda tərəvəz və bostan bitkilərinin əkilib-becərilməsində də xüsusi canlanma müşahidə olunub, 384 hektar tərəvəz bitkiləri əkilmiş sahədən 3894 ton, 193 hektar bostan bitkiləri sahəsindən 2254 ton, 118 hektar kartof əkilmiş ərazidən 1396 ton məhsul toplanılıb. 2020-ci illə müqayisədə tərəvəzdə yığım sahəsi 3,5, yığılmış məhsul 8,3, məhsuldarlıq 4,6 faiz, bostanda tədarük sahəsi 0,5, yığılmış məhsul 1,8, məhsuldarlıq 1,2 faiz, kartofda yığım sahəsi 16,8, tədarük olunmuş məhsul isə 14,1 faiz çoxdur.

Sədərəkdə əkinçiliyin inkişaf perspektivləri barədə söhbət açmışkən üzümçülüyü xüsusi vurğulamamaq mümkün deyil. Rayon sakinlərinin də bildirdiyinə görə, ta qədim zamanlardan bu məhsul Sədərəyin brendi olub, sovetlər dönəmində də ittifaq respublikalar bu məhsula böyük maraq göstərib, üzüm el-el, oba-oba dolaşaraq bu torpağa şan-şöhrət qazandırıb. Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra da bu bölgəmizdə yetişən dadlı-tamlı üzüm sortları süfrələri bəzəyib və bu gün də rayonda məhsulun yetişdirilməsi ilə xüsusi məşğul olunur. 2021-ci ildə də bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın uğurlu icrası nəticəsində üzümçülüyün inkişafı istiqamətində yerli resurslardan istifadə olunmaqla üzüm bağlarının salınması üçün tinglərin becərilməsinə başlanılıb, yeni üzüm bağları salınıb. Nəticədə, ötən il barverən üzüm bağlarından 1546 ton məhsul yığılıb ki, bu da 2020-ci illə müqayisədə 2,2 faiz çoxdur. Həmçinin artım tempi özünü meyvəçiliyin ümumi inkişafında da göstərib, barverən meyvə bağlarından 612 ton məhsul toplanılıb.

Sədərəkdə “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin uğurlu icrası, kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi iribuynuzlu mal-qaranın, xırdabuynuzlu heyvanların baş sayının, eləcə də təbii məhsul istehsalının artımına yol açır. Bu müsbət tendensiya 2021-ci ildə də müşahidə edilib, 1 yanvar 2022-ci il tarixə rayonun bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 4756 baş olub ki, bu da 1 yanvar 2021-ci illə müqayisədə 57 faiz və yaxud 1727 baş çoxdur. 2021-ci ildə rayonda diri çəkidə 475 ton ət, 1907 ton süd, 1 milyon 457 min yumurta, 22,9 ton yun istehsal edilib, 2020-ci illə müqayisədə ət istehsalı 1,7, süd istehsalı 1,4, yumurta istehsalı 1, yun istehsalı isə 1,3 faiz artıb. Heyvandarlıqdan söz açmışkən onu da xüsusi qeyd etmək olar ki, baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 4 oktyabr tarixli Fərmanının icrası muxtar respublikanın bütün bölgələri kimi, Sədərəkdə də yaxın gələcəkdə bu sahənin inkişafına yeni imkanlar açacaq. Kənd təsərrüfatının sadaladığımız bu və digər sahələri üzrə gedən inkişaf prosesləri, ümumilikdə, rayonda ötən il 21 milyon 961 min 700 manatlıq kənd təsərrüfatı məhsulunun istehsal edilməsi, bu göstəricinin 2020-ci illə müqayisədə 4,3 faiz çox olması, eyni zamanda son illərdə xeyli sayda yeni ailə təsərrüfatlarının formalaşması belə deməyə əsas verir ki, Sədərək növbəti illərdə daha böyük uğurları ilə muxtar respublikamızın iqtisadi potensialına töhfələr verəcək...

*“Füsunkar hüsnünün tamaşasına tələsən qonaqlarının sayı hər il daha da çoxalsın, daha da böyük, inamlı, uğurlu yollar fəth edəsən, daim belə dəyanətli, məğrur duruşunla düşmənin ürəyinə qor salıb, gözünə dağ olasan, əziz yurd yerimiz Sədərək” diləyi ilə...*

**Nail ƏSGƏROV**

# İnternet saytının təqdimatı keçirilib




Dünən Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yenilənmiş internet saytının təqdimatı olub. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov çıxış edərək bildirib ki, müasir dövrdə informasiya mübadiləsi baxımından sosial şəbəkələrlə yanaşı, veb-saytlar da geniş imkanlara malikdir. Nazirliyin təqdimatı keçirilən rəsmi saytı da müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi, həmçinin kənd təsərrüfatı sahəsində ictimai fəaliyyəti gücləndirmək və kütləvi informasiya vasitələri ilə əlaqələrin daha dinamik və operativ şəkildə qurulmasını təmin etmək məqsədilə yenilənib. Artıq saytda struktur bölmələr haqqında yenilənmiş məlumat bazası ilə yanaşı, torpaq mülkiyyətçiləri, fermerlər, sahibkarlar, ailə təsərrüfatçılarının maarifləndirilməsi istiqamətində yeni informasiyalar da yer alıb.

Nazirliyin əməkdaşı Səbuhi Həsənov yenilənmiş *ktn.nakhchivan.az* internet saytını təqdim edib. Bildirib ki, sayt həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılıb, elektron xidmətlərin həcmi genişləndirilib. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rəsmi internet saytı müasir proqramlaşdırma dillərindən istifadə edilərək müasir üslubda yenidən hazırlanıb. Sayt Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən dizayn və məzmun cəhətdən müasir üslubda tərtib edilərək hər bir istifadəçinin kompüterinin, istər planşetinin, istərsə də mobil telefonunun ekran ölçülərinə (responsive dizayn) uyğun hazırlanıb.

Yenilənmiş saytda vətəndaşların elektron formada müraciət etmələri üçün "Müraciətlər" bölməsi yaradılıb. Nazirliyin ünvanı, əlaqə telefonu, elektron poçt ünvanı və "Axtarış" bölməsi əsas səhifədə yerləşdirilib. "Nazirlik", "Qanunvericilik", "Aqrar sığorta fondu" bölmələrinə keçidlər də daxil edilib. "Faydalı linklər" bölməsində bir sıra internet saytlarına keçidlər qeyd edilib, saytın "Naxçıvan Muxtar Respublikası" adlı bölməsində isə muxtar respublikamızın inkişafını və turizm potensialını, eləcə də tarixi abidələrini əks etdirən fotoşəkillər slaydlar vasitəsilə göstərilib.

"Mətbuat" bölməsində "Xəbərlər" altbölməsinə keçid təmin olunub və muxtar respublikanın ictimai-siyasi həyatında baş verən hadisələr öz əksini tapıb. "Fotoqalereya" və "Videoqalereya" bölməsində muxtar respublikanın kənd təsərrüfatı sahəsinə aid şəkil və videolar yerləşdirilib. Kollegiya iclasları və aylıq hesabatlar "Hesabatlar" altbölməsində öz əksini tapıb.

Həmçinin səhifədə "Fermerlərə məsləhət" bölməsi də yerləşdirilib ki, bu da istifadəçilərin sahibkarlıq fəaliyyəti və bu sahədəki yeniliklər barədə məlumatlanmağa imkan verəcəkdir. "Xəbərlər" və "Tabeli qurumlar" bölmələrinə keçidlər də yeni tərtibatda daha əlçatan şəkildə təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin internet səhifəsi SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, saytın optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, Google axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün mütəxəssislər tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib, eləcə də domenə bağlı e-poçt adresləri ilə təmin olunub.

Qeyd edək ki, *ktn.nakhchivan.az* domen adı ilə fəaliyyət göstərən yeni internet saytı həm funksionallıq, həm də məzmun cəhətdən əvvəlki versiya ilə müqayisədə daha da təkmilləşdirilib və yeni informasiyalarla zənginləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***







# Naxçıvanda *"Əqlin məhdudiyyətsiz imkanlarının məşqi"* filminin növbəti mövsümü

Gənc nəslin fiziki cəhətdən sağlam və güclü olması, zərərli vərdişlərin qarşısının alınması, beynəlxalq arenada Azərbaycan idmanının nüfuzunun yüksəldilməsi hər zaman dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Uşaq və yeniyetmələrin idmana cəlb olunmasına, fiziki-mənəvi inkişafında mühüm rol oynayacaq sağlamlığının təmin edilməsinə, onların cəmiyyətə sağlam fərd kimi inteqrasiya olunmasına böyük önəm verilir. Xüsusilə bu hər şeyə müxtəlif perspektivlərdən baxmağa qadir olan zəka oyunlarında özünü daha çox büruzə verir. Müasir idmanda şahmatın bir qədər özünün ağırlığını göstərməsi isə diqqətdən yayınmır. ***"Şahmat insanı saflaşdıran və kamilləşdirən idman növüdür",*** – deyən ümummilli lider Heydər Əliyev şahmatı fikri cəmləşdirmə, tənqidi, mücərrəd düşüncə, problem həlletmə, təsvirin tanınması, strateji planlama, yaradıcılıq, təhlil və qiymətləndirmə kimi əqli bacarıqları inkişaf etdirən idman növü kimi səciyyələndirirdi.

Məhz bu istiqamətdən yanaşılan şahmatın Naxçıvan Muxtar Respublikasında bu gün böyük infrastrukturu yaradılıb, inkişaf strategiyası müəyyənləşdirilib, bu növün inkişafı dövlət səviyyəsinə qaldırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda da bu öz əksini tapıb. Muxtar diyarımızda bu növün daha geniş vüsət alması 2018-ci ilə təsadüf edir. Belə ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının konfransında Seymur Talıbovun quruma yeni sədr seçilməsi şahmata muxtar respublikada marağı artırıb, yeni gənc istedadların axtarışı yönümündə böyük işlər görülüb. 2019-cu ildən başlayaraq isə federasiya sədrinin təşəbbüsü ilə mükafat fondunun təsis edilməsi şahmatçılar və məşqçi-müəllimlərin bu idman növünə marağını və rəqabətlik hissini daha da artırıb. Orta məktəblərdə də tədris olunan şahmat dərslərinin yüksək səviyyədə təşkil olunması, onlayn vasitəsilə məktəblilərə təcrübəli müəllimlər tərəfindən ustad dərslərinin keçilməsi, hər ay müəllimlər üçün onlayn seminarlar təşkil edilməsi Naxçıvanda bu növün hansı səviyyədə olmasının göstəricisidir.

Bu növün inkişafı üçün respublikamızda lazımi tədbirlər görülür, gələcəyin sağlam və-



təndaşları yetişdirilir. Şahmatın inkişafının səmərəliliyini təmin etmək üçün 2002-ci ildən etibarən muxtar diyarımızda Şahmat Mərkəzi və 7 rayon məktəbi tikilərək istifadəyə verilib. Bu məktəblərdə istedadlı, perspektivli gənc zəka sahiblərinin aşkar edilməsindən ötrü elmi şəkildə əsaslandırılmış dərs vəsaitləri işlənib hazırlanıb. Bu illər ərzində Şahmat Mərkəzi və məktəblərinin 67 ən yeni müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri, ümumtəhsil məktəblərində şahmat siniflərinin 490 ədəd ayaqlı, 500 ədəd asma və 3910 stolüstü şahmat dəsti ilə təchiz olunması göstərilən qayğının bariz nümunəsidir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə şahmatı tədris edən və uğurlu nəticə göstərən 500-dən çox müəllimə sertifikat verilib ki, onlar tərəfindən ümumtəhsil məktəblərində 5972 saat şahmat dərsi tədris edilir. Federasiya tərəfindən müəllimlərə yaxın köməkçi olan "Pillə-pillə", "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun", "Naxçıvan şahmat diyarıdır", "Şahmat incilərini tapmaq" və "Həvəskardan ustaya qədər" kitabları hazırlanaraq ümumtəhsil məktəblərinə şahmat fənninin yüksək səviyyədə tədris olunması üçün verilib.

Geridə qoyduğumuz ildə Uşaq-gənclər şahmat məktəbləri tərəfindən federasiya ilə birlikdə 132 məktəbdaxili, 73 məktəblərarası, 76 tempo, 93 rayon birinciliyi, 18 muxtar respublika birinciliyi, 20 Azərbaycanın rayonları arasında, 12 Türkiyə və Pakistan şahmatçıları arasında onlayn yoldaşlıq görüşü, 2 beynəlxalq yarış olmaqla, ümumilikdə, 426 yarış təşkil edilib. Ötən ilin ən yaddaqalan hadisəsi isə federasiya tərəfindən ilk dəfə "Naxçıvan Premium Turniri"nin keçirilməsi oldu. Premium



turnirdən sonra may ayında kişilər və qadınlar arasında Azərbaycan çempionatı ilk dəfə Bakı şəhərindən kənarda, Naxçıvan şəhərində keçirildi. Buna səbəb isə Premium turnirin bütün Azərbaycanda yüksək maraqla qarşılanması oldu. Azərbaycan çempionatında 3 zəka sahibimiz mübarizə apardı. İl ərzində şahmatçılarımız 4 xarici ölkədə – Serbiya, Rumıniya, Rusiya və Türkiyədə olan beynəlxalq yarışlarda iştirak edib, ümumilikdə, beynəlxalq turnirlərdən 8 medal qazanıblar. 2021-ci il ərzində federasiya üzvlərindən Röya Cəlilova FIDE hakimi, Pərviz Qasımov beynəlxalq usta, Nəsrin Babayeva isə FIDE ustası tituluna sahib olub. Bununla da federasiyada titullu üzvlərin sayı 8-ə çatıb. Şahmatçı Nazlı Hümbətovanın adı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 iyul tarixli Sərəncamı ilə "Gənc istedadların qızıl kitabı"na yazılaraq xüsusi aylıq təqaüdə layiq görülüb ki, bu da xüsusi mükafata layiq görülən 4-cü zəka sahibidir. Hazırda Naxçıvan şəhəri və bölgələrdə federasiyanın bölmə və qrupları fəaliyyət göstərir. Həmin bölmələrdə, ümumilikdə, 233 qrup üzrə 3106 uşaq, yeniyetmə və gənc idmanın bu növü ilə məşğul olur.

Ümumiyyətlə, Şahmat Federasiyası bu növün kütləviliyi üçün müəyyən tezislər tərtib edib ki, bu da uşaq və yeniyetmələrin şahmata maraq göstərməsinə səbəb olub. Əlbəttə, federasiyanın başlıca məqsədi:

- *Naxçıvanda uşaq, yeniyetmə və gənclərinin şahmata olan marağını artırmaq;*
- *uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda böyüməsinə yardımçı olmaq;*
- *uşaq, yeniyetmə və gənclərimizi müntəzəm olaraq şahmatla məşğul olmağa cəlb etmək;*
- *istedadlı şahmatçıları üzə çıxarmaq və onlarla fərdi olaraq məşğul olmaq;*
- *istedadlı uşaq, yeniyetmə və gənc şahmatçıların irimiqyaslı yarışlarda, beynəlxalq turnirlərdə iştirakını təmin etmək;*
- *titullu şahmatçıların sayını artırmaq.*

*Naxçıvanda keçirilən beynəlxalq və ölkədaxili yarışlarda, turnirlərdə iştirak edən şahmatçılar, nümayəndə heyətləri hər zaman təşkilatçılığı ön plana çəkərək muxtar respublikanı şahmat dünyası üçün nümunə göstərirlər. Təbii ki, bütün bunlar diyarımızda olan sabitlikdən, qonaqpərvərlikdən, idmana göstərilən diqqət və qayğıdan qaynaqlanır. Bu gün start veriləcək kişilər arasında növbəti Azərbaycan çempionatına Naxçıvanın yenidən ev sahibliyi etməsi deyilənlərin əyani sübutudur.*

**Ceyhun MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikasının Güləş Federasiyası İranda keçirilən turnirlərdə uğurla təmsil olunub



*Naxçıvan Güləş Federasiyasından qonşu ölkəyə 22 idmançı, 3 məşqçi-müəllim və 3 hakimdən ibarət heyət yola düşüb. İdmançılarımız öncə Xoy şəhərində 29-31 yanvar tarixlərini əhatə edən sərbəst güləş üzrə beynəlxalq turnirdə qüvvələrini sınayıblar.*

Ümumilikdə, 12 komandanın qatıldığı yarışda Naxçıvan yığmasından Fuad İsgəndərli (26 kiloqram), Ələkbər Əsgərov (29 kiloqram), Tuqay Qəhrəmanlı (38 kiloqram), Namiq Əlizadə (48 kiloqram), Ayxan Bağırov (51 kiloqram), Daşqın Rəsulov (71 kiloqram), Murad Hətəmli (75 kiloqram), Murad Abdullazadə (80 kiloqram) və Süleyman Məmmədov (92 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinci olublar.

"Naxçıvan" komandası bu göstəricilərə əsasən yarışın yekun sıralamasında 3-cü yerdə qərarlaşıb.

Bu yarışın ardınca Poldəşt şəhərinə yollanan yığmamız 4 komandanın iştirakı ilə keçirilən sərbəst güləş üzrə yoldaşlıq turnirində iştirak edib. İdmançılarımızdan Fuad İsgəndərli (26 kiloqram), Ələkbər Əsgərov (29 kiloqram), Turqay Məmmədli (35 kiloqram), Tuqay Qəhrəmanlı (38 kiloqram), Nazim Qurbanov (44 kiloqram), Turqay Həsənov (46 kiloqram), Namiq Əlizadə (48 kiloqram), Ayxan Bağırov (51 kiloqram), Yəhya Paşayev (55 kiloqram), Onur Əlizadə (60 kiloqram), Nuruağa Əhmədov (82 kiloqram) öz çəki dərəcələri üzrə qalib olublar. İlkar Əlican (57 kiloqram), Dəniz Məmmədli (41 kiloqram) və Daşqın Rəsulov (71 kiloqram) yarışı ikinci sırada tamamlayıblar. Bu nəticələrlə komandamız ümumi sıralamada birinci olub.

İdmançılarımıza diplom, komandamıza isə kubok təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Mənafov İsmayıl Adil oğluna aid 0200121832 saylı VÖEN şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 110